BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№2 ***Humanitar elmlər seriyası*** ***2015***

DİLÇİLİK

UOT 81ʹ1; 81ʹ373;001.4

AZƏRBAYCAN DİLİNDƏ ALINMALARIN MƏNİMSƏNİLMƏ VƏ TƏTBİQİ MƏSƏLƏLƏRİ

F.A.ŞİRİYEV
Bakı Dövlət Universiteti
fikrethemkar@mail.ru

Məqalə alınma sözlərin mənimsənilmə və tətbiqi məsələlərinə həsr edilib. Burada, ekstra və intralinqvistik xüsusiyyətlər önə çəkilir, alınmalara münasibətdə utilitarizm, purizm, ksenomaniya yollarından bəhs edilir, dil vahidlərinin transliterasiyasının səbəb və tətbiqinə diqqət yönəldilir. Dil vahidlərinin kalkasına da münasibət bildirilir.

Açar sözlər: simpraktika, fono-semantika, triada, transliterasiya, etimon dil, utilitarizm, purizm, ksenomaniya, kalka

Hər hansı bir dilin mükəmməlliyi həmin dilin öz yayılma arealından kənara çıxması ilə yanaşı həm də, digər dillərlə əlaqəsi, yaxın və uzaq dillərdən sözalması ilə müəyyənləşir. Bu baxımdan Azərbaycan dili geniş yayılmış türk dillərindən biri kimi özünü digər dillərin vahidlərinə münasibətdə açıq dil sistemi kimi göstərir.

E.Koseriu dili "ergon" (fəaliyyətin nəticəsi) deyil, "energia" (fəaliyyətin özü) (1, 153) adlandırarkən həm də onu nəzərdə tuturdu ki, mükəmməl dil (və dillər) digər dillərlə qarşılıqlı münasibətin hərtərəfli fəaliyyət kontekstində substantiv xarakterini qoruyur – özü öz mövcudluğunu təmin etməklə zənginləşdirir (1, 158). Bu isə etnos dilin milli dilə – rəsmiləşmiş dominant dilə çevrilməsidir (2, 21). Qeyd etmək lazımdır ki, bu zaman digər dillərin sözlərinə, onların alınmasına, mənimsənilməsinə və tətbiqinə ehtiyac yaranır. Əgər E.Koseriu dili fəaliyyətin özü hesab edirsə, A.Luriya dili, yuxarıda göstərilən daxili ehtiyaca görə, belə xarakterizə edir: "dil simpraktik xarakterlidir, yəni dil insanın praktik fəaliyyətini qeydə alır" (3, 32). Dilin sosial və psixoloji aspektlərini

nəzərə alaraq A.Luriya, üstüörtülü də olsa, dildaxili proseslərdə subyektal amillərə də işarə edir. Çünki sözün birbaşa praktik fəaliyyətdən - təcrübədən, özü də öncə fərdi təcrübədən emansipasiya, yəni predmetlə bilavasitə münasibət nəticəsində yaranması (biz bunu şərti olaraq "yaranma" adlandırırıq) danılmazdır. Təmas və münasibət özgə dil vahidləri ilə də ola bilər. Belə vahidlərsə, etimon dillə münasibətdə alınma və keçmə ola bilər. Əgər alınmalar qrupuna təbii-tarixi zərurətdən doğan könüllü sözlər daxildirsə, keçmələrə sosial-siyasi proseslərin nəticəsində meydana çıxan və etimon dildə ya müəyyən fonosemantik dəyişikliyə uğrayaraq öz mövcudluğunu qoruyub saxlayan, ya da müəyyən dövrdən sonra dili tərk edən, məcburi qəbul etdirilən dil vahidləri daxildir. Azərbaycan dilinin timsalında hər iki prosesi – həm dini, həm də müxtəlif ictimai-siyasi proseslərin müstəvisində izləmək mümkündür.

Məqsədimiz diqqəti Azərbaycan dilində olan alınma sözlərin – könüllü, yaxud məcburi adlandırılmasına baxmayaraq, mənimsənilməsi və onların praktik tətbiq olunması məsələlərinə yönəltməkdir. Biz ümumxalq danışıq dilini – alınmaları – milli ədəbi dil triadasını aşağıdakı kimi təsvir edə bilərik:



Burada A – ümumxalq danışıq dili, B – özgə dil vahidləri, alınmalar, C – milli ədəbi dili bildirir. Bunlar öz aralarında qarşılıqlı münasibətdədir. Yəni:

A – ümumxalq danışıq dili digər dillərdən birbaşa söz aldığı kimi, həmin dillərə də söz ötürür. Eyni zamanda danışıq dili digər dillərdən birbaşa aldığı dil vahidini ədəbi milli dilə transfer edir. Əlbəttə, bu ötürmələrdə fono – semantik deformasiya – dəyişmələr istisna deyil.

B – özgədil vahidləri milli ümumxalq (etimon) danışıq dilinə keçdiyi kimi həmin milli ədəbi dilə də birbaşa keçə bilir və ikisinin də bazasından sözalma imkanı əldə edir.

C – milli ədəbi dil konkret norma və qanunlara malik kateqoriya olsa da, onun zənginləşməsinin bir daxili potensialı canlı danışıq dili, digər mənbəyi əcnəbi dillərdir.

Bu triadadakı qarşılıqlı münasibətlər bütün hallarda transliterasiya ilə - ədəbi dildə qrafik forma ilə özünə yaşama hüququ əldə edir.

Alınma və keçmələrin transformasiyası ilə bağlı təsvir etdiyimiz triadadakı münasibətlərə dilçilik ədəbiyyatında ötəri də olsa, toxunulmuşdur (4, 5, 6, 7, 8).

Azərbaycan dilində alınma söz, termin və leksemlərə münasibətin konkret olaraq üç yolunu göstərmək olar:

1. *Utilitarizm* – bu, alınma sözlərin qəbulu zamanı onları əvəzləmək üçün

dilin lüğət tərkibində tarixən mövcud olmuş, sonradan köhnəlmiş (util) sözlərin yenidən dildə işləklik əldə etməsidir. Bu proses də iki mənbəyə əsaslanır: a) ümumxalq canlı danışıq dili və b) klassik şifahi və yazılı mənbələrin dili;

Milli ümumxalq canlı danışıq dilinin dövrlər üzrə konkret faktlarını diaxron baxımdan izləmək və danışıq dilinin inkişaf trayektoriyasını müşahidə etməyin çətin olduğunu, yaxud bir qədər mümkünsüzlüyünü nəzərə alsaq, orada əsasən, klassik şifahi və yazılı mənbələrə müraciət yoluna üstünlük verildiyini görərik. Unutmamalıyıq ki, M.Kaşqarlının "Divani lügət-it-Türk" sözlüyü bu baxımdan ən dəyərli mənbə sayıla bilər, çünki müəllif özü müqəddimədə göstərir ki, lüğətdəki sözləri oğuzların danışıq dilindən toplamışdır (9). Digər mənbələrə müxtəlif dastanlar, "Oğuznamə"lər və XI-XIII əsrdən bəlli olan lüğətlər daxildir (10, 11). Əlbəttə, biz buraya Qədim Türk Yazılı Abidələrini də əlavə etməliyik (12).

Utilitarizm yolu ilə bir sıra alınmaların əvəzlənməsi baş vermişdir: ***serjant-çavuş, starşina/praporşik-gizir, batalyon-tabor, polk-alay, rota/vzvod-taqım, zalp-yaylım və s., o cümlədən: video-görüntü, pasport-kimlik, hadisə-olay, müvəffəqiyyət-uğur, nömrə-say, menyü-öynə, sutka-günlük, probka-tıxac*** və s.

Biz daha aydın olsun deyə, hələlik son dövrlərdə Azərbaycan dilində baş verən utilitarizm prosesinə diqqəti cəlb etdik.

2. *Purizm* – ötən əsrin 30-cu illərində özünü qabarıq şəkildə göstərən bu proses utilitarizmdən fərqlənir. Əgər utilitarizm prosesində alınma sözün həm də milli dil üçün daha anlaşıqlı digər alınma vahidlə əvəzləməsi yolverilən sayılırdısa – məsələn: ***deputat-millət vəkili, dizertir-fərari, agent-xəfiyyə, blokada-mühasirə, diversiya-təxribat, ekipaj-heyət, evakuasiya-təxliyyə*** *və s.* – purizmdə alınma sözlərin yalnız milli dil vahidlərilə əvəzlənməsi nəzərdə tutulur. Lakin tarixi-siyasi proseslər heç də həmişə purizmə imkan verməmişdir: məs., ötən əsrin 30-cu illərində dilin bu xarakterinə üstünlük verənlər "millətçi", "türkçü", "şovinist" adı verilərək cəzalandırılırdılar. Lakin bu prosesi şüurlu və elmi şəkildə yerinə yetirənlər də var idi. Bunu 1907-ci ildə Ü.Hacıbəyli tərcümə lüğətində (14), 1926-cı ildə general Ə.Şıxlı hərbi leksikologiyada (13) etmişdirlərsə, müxtəlif şair və yazıçılar öz bədii əsərlərində edir, Azərbaycan dilinə yeni sözlər gətirirdilər. M.Müşfiq, Ə.Cavad, Y.V.Çəmənzəminli, C.Cabbarlı, A.İldırım və başqaları öz yaradıcılıqlarında milli mənşəli yeni sözləri işlədir və kütləviləşdirirdilər.

Purizm, əsasən yeni sözyaratma prosesi kimi "özləşdirmə" sayılır. Lakin burada bəzən tətbiqə elə dil vahidləri təklif edilmişdir ki, sonradan işləklik qazana bilməmişdir. Məsələn, haqqında danışdığımız 30-cu illərdə bilərəkdən və ya bilməyərəkdən dilə belə sözlər salınırdı: ***vilka-çatal, dizertir-qaçaq, zona-qurşaq, kuryer-yükürük, ustav-düzənlik, patrul-baxıçı və s.*** (13). Ancaq həmin dövrdə alınmaları əvəzləmək üçün elə yeni sözlər də yarandı ki, o illərdə olmasa da, sonralar onların bəziləri işləklik qazana bildi: ***doğu, batı, güney, quzey, sürgün, seçki, kəski, yaylım, yayım, anlam, sözlük, bölüm, bölgə, gəlir,***

çıxar və s. Biz buraya son dövrlər işləklik əldə etmiş sözləri də əlavə edə bilərik: ***bağlantı, görüntü, cizgi, soyqırım, anayasa, yetərsay, sərgiləmək, dəstəkləmək, tıxac və s.***

Əvvəl qeyd etdiyimiz kimi, sözyaratmada, leksemə yanaşmada fərdi amil purizmdə özünü daha çox göstərir.

3. Ksenomaniya – alınma sözlərə münasibətin ən "demokratik" yolu hesab olunur. Bu, özgədil vahidlərinin mənimsənilməsi və tətbiqində qəbul edilən sözün etimon variantına münasibəti müəyyənləşdirir. N.Yuşmanov bu prosesi milli dilin lüğət tərkibində ksenoleksika adlandırır (16). Ksenomaniyada alınma sözlərə münasibət purizmdə olduğu kimi subyektiv amillərə deyil, milli dilin daxili qanunauyğunluqlarına söykənir. Burada intralinqvistik diqtə, alınan sözlərin fonotərtibatına münasibət özünü göstərir və bu zaman özgədil vahidləri mənimsənilmə və tətbiqdə iki qrupa bölünür:

a) əcnəbi dillərdən olduğu kimi alınan, fonotərtibatında heç bir dəyişiklik baş verməyən sözlər: ***yar, can, eşq, cənnət, cəhənnəm, dildar, kosmos, opera, parlament, senat, biznes, kapital, leksika, leksem, Moskva, morfem, sintaqm, transliterasiya və s.*** Yuxarıda qeyd edildiyi kimi, bu zaman milli dilin "demokratik" münasibəti özünü göstərir.

b) alınma sözlərin fonotərtibatında milli dilin intralinqvistik tələbinə görə müəyyən dəyişiklik baş verən sözlər: ***ketab-kitab, saət-saat, qazeta-qəzet, poçta-poçt, generalis-general, maşina-maşın, efreütor-yefreytor və s.***

Əlbəttə, biz alınmalara münasibətin **kalka** yolunu da əlavə edə bilərdik. Ancaq başqa dillərdən fərqli olaraq Azərbaycan dilində alınmalara münasibətin utilitarizm və purizm yolu kalkanı, ən azı tərcümə xarakterli olduğuna görə istisna edir. Həm də kalka prosesində etimon dilin diqtəsi öz üstünlüyünü saxlayır.

ƏDƏBİYYAT

1. Косериу Э. Синхрония, диахрония и история // Новое в лингвистике, вып. 3, М.: 1963, с. 143-347.
2. Cəfərov N. Azərbaycan türkcəsinin milliləşməsi tarixi. Bakı: 1995, 207 s.
3.Лурия А.Р. Язык и сознание. М.: 1979, 186 с.
4. Дешериев Ю.Д. Социальная лингвистика. М.: 1977, 382 с.
5. Исаев М.И. Язык и нации. М.: 1973, 248 с.
6. Rəcəbli Ə. Sosiolinqvistika. Bakı: 2004, 516 s.
7. Məmmədli N. Alınma terminlər. Bakı: 1996.
8.Суперанская А.В., Подольская Н.А., Васильева И.В. Общая терминология. М.: 1989. 246 с.
9. Divan-ü-lüğat-it-Türk (çev. B.Atalay), I-IVc., Ankara: 1939-1941.
10. İbni-Mühenna lüğati. Ankara: 1988, 105 s.
11. Əsirəddin Əbu Həyyan əl-Əndəlusi. Kitabi əl-idrak li-lisan əl-ətrak (çev. Z.Bünyadov). Bakı: 1992, 115 s.
12. Rəcəbli Ə. Qədim türkcə-azərbaycanca lüğət. Bakı: 2001, 192 s.
13. Краткий русско-татарский военный словарь. Сост. Али-Ага Шихлинский. Баку: 1926, 268 s.
14. Русско-татарский и татаро-русский словарь... сост. Узеиръ-Бекь Гаджибеков. Баку: 1907, 94 с.
15. Юшманов Н.В. Грамматика иностранных слов. М.: 1933, 42с.

ПРИМЕНЕНИЕ ЗАИМСТВОВАННЫХ СЛОВ И ИХ ПРИСВОЕНИЕ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

Ф.А.ШИРИЕВ

РЕЗЮМЕ

В статье основное внимание уделяется применению заимствованных слов и их присвоения. Здесь автор также обращает внимание на экстра и интралингвистические функции, по отношению к приемным словам упоминаются способы утилитаризм, пуризм, ксемания. Внимание направлено на причины реализации транслеритацию языковых единиц. Так же говорится об отношение кальке языковых единиц.

Ключевые слова: симпрактика, фоно-семантика, транслитерация, этимон язык, утилитаризм, пуризм, ксемания, калька

APPROPRIATION AND APPLICATION OF LOAN WORDS IN THE AZERBAIJANI LANGUAGE

F.A.SHIRIYEV

SUMMARY

The presented article focuses on the application of loan words and misappropriation. Extra and intralingvistic features are put forward, purism and ways of xenomania are dealt with in relation to Loan words and great attention is directed to the reason and use of transliteration of language units as well. The attitude towards the language units is also analyzed in the article.

Key words: sympractice, phonosemantics, transliteration, etymon, purism, xenomania